

## Nizami GƏNCƏVİ

## QƏZƏLLƏR

***

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,*
*Hər nəfəs çəkdim hədər getdi o saət sənsiz!*

*Sənin ol cəlb eləyən vəslinə and içdim inan,*
*Hicridə yandı canım, yox daha taqət sənsiz!*

*Başqa bir yarı necə axtarım, ey nazlı mələk,*
*Bilirəm sən də dedin: "yox yara hacət sənsiz"!*

*Sən mənim qəlbimə hakim, sənə qul oldu könül,*
*Sən əzizsən, mən ucuz, bir heçəm, afət, sənsiz!*

*Nə gözüm var arayım mən səni, bəxtim də ki, yox,*
*Nə də bir qaçmağa var məndə cəsarət, sənsiz!*

*Sən Nizamidən əgər arxayın olsan da, gülüm,*
*Gecə-gündüz arayıb olmadı rahət, sənsiz!*

***

*Gözüm aydın, gözümə surəti-canan görünür,*
*Müşk-ənbər saçaraq ətrlə əfşan görünür.*

*Allaha şükr edirəm, ey gözümün nuri, bu gün*
*Yar gəlib göz önünə, sərvi-xuraman görünür.*

*Ayrılıq zəhrini daddım, acı da olsa, vüsal*
*İki dünyayə dəyər, öylə ki hicran görünür.*

*Səni bir dəfə görənlər güvənir eşqimizə,*
*Nə üçün gözlərin ey dil, belə giryan görünür?*

*Eşqini canım ilə basladi birlikdə könül,*
*Onsuz ey sevdiciyim, can evi viran görünür.*

*Ey sənəm, vəslin ilə öylə ki şad oldu könül,*
*Yırtdı qəm köynəyini, gül kimi xəndan görünür.*

*Şadlığından alışıb yandı Nizami, dedi ki:*
*"Gözüm aydın, gözümə surəti-canan görünür".*

***

*Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi,*
*Üzü aydan da gözəl nazlı nigar gəlmiş idi.*

*Tər axıb gül yanağından, bulud örtmüşdü ayı,*
*Onu düşmənmi qovub könlü qubar gəlmiş idi?*

*Ona mən göz yetirib xəlvəti baxdım, baxdım,*
*Ovçunun ovlağına körpə şikar gəlmiş idi.*

*Uyuyub hər ikimiz rahət olub bir yatdıq,*
*Bəxtimin bağçasına güllü bahar gəlmiş idi.*

*Dedi: - Getmək dəmidir, söylə nə istərsən yar!*
*Bir öpüş istədim ondan... yeri var, gəlmiş idi.*

*Ağlayıb getdi o yar, göz yaşı yandırdı məni,*
*Odlara yandı dilim, sanki şərar gəlmiş idi.*

*Ey Nizami dedi, birdən ayılıb, gördüm o yox,*
*Demə röyadə bizə çeşmi-xumar gəlmiş idi.*

***

*Yenə tövbə evimi eşq xərab etmədədir,*
*Aşiq iftarını sevda meyi-nab etmədədir.*

*Könlümə bir mələyin sevgisi od saldı adı,*
*Günü də, Zöhrəni də göydə sərab etmədədir.*

*Onun eşq atəşi hər qəlbə girər, amma nədən,*
*Tək mənim qəlbimi atəşdə kəbab etmədədir?*

*Gözlərin baxdı mənə söylədi: səbr et, səninəm,*
*Doğrusu səbr edərəm, ömr şitab etmədədir.*

*Ahu gözlüləri yatmış zaman ovlar ovçu,*
*Əmr röyadə şikar olmağa tab etmədədir.*

*Məsləhətdir məni qovmaqdan isə versin əzab,*
*Yar bunu yaxşı düşünmüşdür, əzab etmədədir.*

*Gər Nizamini xəta isə həlak etdirmək,*
*Aşiqəm, yar məni öldürsə səvab etmədədir.*